**İman Usuboğlu**




## ALIRSANMI?

Qoşa-qoşa gedən fələk,
Dərd satıram, alırsanmı?
Bir ah ucuz, min ah baha,
Mərd satıram, alırsanmı?

Təzə bəxt yaz göndər mənə,
Hesab öyrən dərdim sana,
Dəstə-dəstə, qoma-qoma,
Dost satıram, alırsanmı?

Bilmədim durur yanımda,
Axır dolanır qanımda,
Gecələr hürür canımda,
İt satıram ,alırsanmı?

* * *

Metroda rastlaşdıq,
Üzümdə, gözümdə
Gəzdi gözləri,
“Şeirlərini oxudum qəzetdə,
Gözlərim doldu” dedi.
Ayağımda ayaqqabım,
Başımda papağım,
əynimdə köynəyim nimdaş,
bir göz doldura bilirəmsə,
bəsimdi, qardaş.

* * *

Nə istərsən, nə,
Nəğməmi?
Nə oxuyum sənə, nə,
Şikəstəmi,
Səs verməyib Allah mənə,
Necə oxuyum?
İnsan deyiləm,
Qədim yurdlardan qalma daşam,
Aşıq da deyiləm, söz qoşam,
Amma getmə,
Yüz ilin qocası kimi,
Ötənlərimə söykənib, eləcə
Gümüldənəcəm beləcə.
Gümüldənəcəm beləcə...

## SÖZ

Söz de mənə,
Mənə söz de
Dediyin sözlə diriyəm
Demədiyim sözdən ölü.
Sözdən doğuldum,
Bir anam da sözdü.
Söz eşidə-eşidə sözə doğru iməklədim,
Sözə bələndim,
Yüyürüyüm sözdə quruldu,
Sözə yürüdüm,
Sözə boy atdım,
Sözü tanıdım, sevdim, inandım sözə.

## Və

Ən doğru kəlməni,
Bir dəli söylədi.
Ən ucuz ölümlə,
Bir dahi öldürüldü.
Alim olan kimsəyə,
Nadanlar güldürüldü.
və.....

Bir adama,
Yüz söz dedim,
Yüzünü də yandım dedim,
Yuxum - qəflət yuxusuydu,
Qəfil oyandım, dedim
Və.....

Gözündə yaşın lil elər,
Damlasa - yeri kül elər,
Dərdli dilindən bəllənər,
Və...

Dil dedim əkdim gecəyə,
Qəmimi bükdüm gecəyə,
Qara qul oldum gecəyə,
Yuxularım uçdu yenə,
Və....

Bir şerimi öldürdü fələk,
Sənə yazmadım çünki,
Asdı göz yaşlarımı kirpiklərimdən,
Sənə ağlamadım çünki,

Bir bəstəmi boğazladı
Sənə oxumadım çünki,
Lənətlədim əllərimi,
sənə toxunmadım çünki.

* * *

Şeiri sevdinmi
Türkcəni öyrəndinmi,
Yuxuna gəlsəm,
Gəlib də
Bir bənd,
Tək bircə bənd söyləsəm -
Yuxundan qovarsanmı,
Sənə dərdini oxumuş bu adamı.
Şeir yazmıram daha,
Qara pul kimi xərclədim dünən
Ağrılarımı...
iki parç pivəyə
Və
Bir şüşə şəraba dəyişdim,
içdim,
Keçilməyən şeylərdən keçdim,
Səndən də keçdim, canım,
Səndən də
Lal-lal axdım belə.

* * *

Gözümdəki buludlar,
Boz üzümü suvardı,
Ruhum göylərdən daha ucadı,
Başımın dumanından
Duman verdim dağlara,
Bəbəklərimi bitirdim,
Duruldum
Lal-lal axdım belə.
Gəl...
Günü yubatma
Gəl.
Könlüm azad eşqinə,
Canım fəda,
Tanrılıq Tanrıda,
Bəndə də bəndəlik.
İlan olmadım, adam çalmadım,
Səbrimi çaldım,
Neytək,
Gəl...
Gəl...
Günü yubatma, gəl..

